# SABİS zirvələrə yol açır

Son illər təhsil sistemində mühüm dəyişikliklər olan ölkəmizdə yeni dərs ilində də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişini təmin etmək üçün bir sıra sistemli tədbirlər həyata keçirilib. Aparılan əsaslı təmir, abadlıq-quruculuq, yenidənqurma işləri



ilə yanaşı, yeni-yeni təhsil ocaqlarının açılması müəllim və şagirdlərin daha yaxşı işləməsi və oxuması üçün stimul yaradır. Bu il də ölkəmizin təhsil sistemində daha bir yeniliyə imza atıldı. Belə ki, BƏƏ, Livan və ABŞ-da yerləşən üç müstəqil kooperasiya vasitəsilə 4 qitədə fəaliyyət göstərən, dünyanın 16 ölkəsində 65000 şagird yüksək keyfiyyətli təhsil verən SABİS SUN Beynəlxalq Məktəbi 2015-2016-cı tədris ilində qapılarını azərbaycanlı şagirdlərin üzünə açdı. Dünyanın qabaqcıl ölkələrində və Yaxın Şərqdə fəaliyyət göstərən ingilis və amerikan beynəlxalq standartlarına malik müasir təhsil sistemində əsas amil - təhsil sisteminin bütün müasir sistemlərə uyğunluğu və təhsil dilinin ingilis dilində olmasıdır. Məktəbin direktoru Yakobus Gerike Sabis təhsil sisteminin özünəməxsus xüsusiyyətlərini izah edərək deyir: "Tarixi XIX əsrdən başlayan, XXI əsrdə qarşıya qoyulan inkişaf konsepsiyası ilə SABİS dəyişən dünya üçün yüksək keyfiyyətli təhsil tədris edir.

3 yaşdan 12 yaşa qədər şagirdləri müasir təhsillə təmin edən SABİS SUN İnternational School Dreamland inkişaf layihəsi daxilində 67000 kvadratmetr sahəyə malik kampusda yerləşir. Kompleks Zığ şosesinin 22-ci kilometrində 330 hektarlıq geniş ərazini əhatə edir. Ən müasir standartlara cavab verən kampusun birinci fazasına bağçalar və ibtidai məktəblər üçün binalar, bağça üçün nəzərdə tutulmuş mini-gimnaziya və oyun meydançası, ibtidai məktəb üçün isə inzibati binaya və xidmət binasına əlavə olaraq gimnaziya və oyun meydançası daxildir.



Akademik mükəmməlliyin əldə edilməsinə yönəlmiş, həqiqi beynəlxalq təhsili təmin etmək məqsədilə bir əsrdən çox inkişaf etdirilən, təkmilləşdirilən Sabis təhsil sistemi müəllimlərin inkişaf və həyata hazırlıq proseslərinin balanslaşdırılması ilə şagirdlərdə təhsilə olan daimi marağı gücləndirir və dünya səviyyəli vətəndaşlar yetişdirir.

Bu təhsil sistemi əsaslandığı fəlsəfə, qarşısına qoyduğu hədəflərə nail olmaq üçün istifadə etdiyi yanaşma və üsullarla fərqlənir və möhkəm, əsaslandırılmış, yüksək standartlara cavab



verən təhsil verir. SABİS SUN İnternational School ali məktəblərə qəbul olmaq üçün təşkil etdiyi kurslarla yanaşı eyni zamanda U.S.Advanced Placement imtahanları, SAT və TOFEL imtahanları və Britaniya İGCSE və ASİH səviyyə üzrə imtahanların daxil olduğu çoxlu sayda imtahanlarda uğur qazanmağa imkan verən kurslar da təşkil edir.

SABİS təhsil sistemi akademik inkişafı sosial, fiziki və emosional inkişafla balanslaşdırır və şagirdlər bacarıq, maraq, hobbilərini araşdırmağa və təhsil üzrə sağlam güclü yanaşmanı stimullaşdıran fiziki, akademik, elmi və yüksək peşəkar axtarışlarda iştirak etməklə həyat bacarıqlarını inkişaf etdirməyə təşviq edilir. Bununla bərabər, məktəbdənkənar məşğələlər şagirdlərin akademik biliyini təkmilləşdirməklə yanaşı, onları fiziki baxımdan formada saxlayaraq enerjilərini, davamlılıqlarını və əqli aktivliyini azdıraraq maraqlarını inkişaf etdirir.

Ümumiyyətlə, SABİS təhsil sistemində biliyin dərinliyini və genişliyini önə çəkən ciddi təhsil proqramı, təhsil üçün vacib olan səmərəli bilik və bacarıqları yaratmaq, dünya dilləri və mədəniyyətlərini öyrətmək, dünya təhsil sisteminə asanlıqla keçmək imkanı ən vacib amillərdir. Buna görədir ki, SABİS məzunları cəmiyyətin öndə gedən üzvləri olmaqla yüksək vəzifələr tutan peşəkar bir qrup təşkil edir. Biz də əminik ki, gündən-günə böyüyən, inkişaf edən Azərbaycanda fəaliyyətimiz öz bəhrəsini tezliklə verəcək".

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**